SÜLEYMAN ƏLİYARLI
*Tarix elmləri doktoru, professor, əməkdar elm xadimi*
SEVDA SÜLEYMANOVA
*Tarix elmləri doktoru*

# XX ƏSRİN BAŞLANĞICINDA ERMƏNİ TƏCAVÜZÜ HAQQINDA YENİ TƏDQİQAT ƏSƏRİ

XXI əsr dünyanın yeni düzümü, qloballaşma dövrüdür. Müasir dünya ötən əsrlərdəkindən ölkələr arasında daha sıx əməkdaqlıq və tərəfdaşlıq əlamətləri ilə fərqlənir. Hazırki bir qütblü dünyada bütün millətlər arası, regional və ölkələr arası münaqişələrin dünya birliyinin , o cümlədən beynəlxalq təşkilatların birgə səyləri ilə diplomatik sülh danışıqları yolu ilə həll edilməsinə cəhd göstərilir. Doğrudur, bu çox uzun davam edən üzücü proses olsa da dünyanın yeni düzümünün tələblərinə cavab verir. Lakin bu heç də o demək deyildir ki, ərazimizin 20 faizdən çoxunun erməni işğalı altında olduğu, bir milyona yaxın öz vətənində «vətənsiz» məcburi köçkünlərin acınacaqlı yaşayışı şəraitində biz erməni-Azərbaycan münaqişəsinin ilkin tarixi şərtlərini və səbəblərini araşdırmaqdan imtina etməliyik.

Eldar Əziz oğlu Əzizovun yeni işıq üzü görmüş «Difai»: XX əsrin əvvəllərində erməni-Azərbaycan münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri» adlı kitabı ötən əsrin əvvəllərində bütün Qafqazı bürümüş qanlı hadisələrin təhlilinə həsr edilmişdir. Müəllifin özünün də qeyd etdiyi kimi, bu mövzu bir neçə elmi- tədqiqat əsərinin obyektinə çevrilmişdir. Bu sətrlərin müəlliflərindən biri 90-cı illərin əvvəllərində «Difai», «Qarabağ birlik məclisi» və «Müdafiə» partiyalarının fəaliyyəti ilə bağlı Moskvada Rusiya Federasiyasının Tarix arxivində (o zaman MDTA adlanırdı), Azərbaycan Respublikasının tarix Arxivi, Dövlət Arxivi və o dövrdəki AR siyasi partiyalar və ictimai hərəkatlar arxivində (indi adı dəyişib) olan demək olar ki, bütün sənədləri araşdırıb və bir neçə elmi məqalə, konfranslarda məruzə, xüsusilə «Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri)» adlı fundamental monoqrafiyada elmi surətdə tədqiq etmişdir. Təəssüf ki, adı çəkilən kitabda bu əsərlərdən az istifadə edilmişdir.

Ötən əsrin 70-ci illərində Azərbaycan Milli burjuaziyasının fəaliyyətini tədqiq etmiş D. Seyidzadənin əsərlərində milli partiyalar haqqında geniş məlumat verilir. E. Əzizovun istifadə etdiyi İ. Bağırovanın və X. Məmmədovun da monoqrafiyalarında bu partiyalar haqqında faktiki məlumat vardır. Bunların fikirlərinə münasibət göstərilməsi diqqəti çəkir və tam yerindədir.

Artıq dəfələrlə elmi dövriyyəyə cəlb edilmiş arxiv sənədlərinin (köhnə ad və siyahı ilə, özü də rus dilində) birdaha təkrar edilməsi kitaba sənədli xülasə xarakteri verir.

Əsərin müsbət məziyyətlərindən biri Difai partiyasının fəaliyyətinin erməni-azərbaycan ziddiyyətlərin yaranmısının ilkin tarixi şərtləri və səbəbləri fonunda nəzərdən keçirilməsidir. Belə ki, bu partiya məhz erməni hücumlarının qarşısını almaq üçün yaradılmışdır və adı ərəb dilində «dəf etmək» mənasını daşıyırdı.

Müəllif milli münaqişənin köklərini araşdırarkən, çar Rusiyasının XVIII əsrin birinci rübündən başlayaraq Cənubi Qafqazın hərbi-siyasi ekspansiyası ilə bu ziddiyyətlərinin əsasını qoyduğunu tarixi faktlarla əsaslandırır. Çünki, həmin siyasətin həyata keçirilməsində erməni amilinə xüsusi diqqət ayıran çarizm, onu regionda özünün sosial dayağına çevirərək, İran və Türkiyəyə qarşı müharibələrdə xristian ermənilərlən istifadə edirdi.

I Pyotrun vəsiyyətindən başlayan bu siyasət XIX yüzilliyin əvvəllərində Gülüstan (1813) və Türkmənçay (1828) sülhlərinin imzalanması ilə reallaşdı. Məhz Türkmənçay sülhünün XV bəndinə əsasən on minlərlə erməni ailəsinin İran və Türkiyədən Azərbaycanın tarixi torpağı olan Zəngəzur, Qarabağ və Naxçıvan ərazilərinə köçürüldü. E. Əzizov yazır ki, bu siyasət nəticəsində XX əsrin əvvəllində erməni-azərbaycanlı ziddiyyətləri kulminasiya nöqtəsinə çataraq açıq qanlı qarşıdurmaya çevrildi.

Kitabın giriş hissəsində müəllif mövzunun elmi tarixişünaslığını dərin təhlil etmiş, sovet dönəmində yazılan əsərlərə obyektiv qiymət vermişdir. Müstəqillik dövründə meydana gələn tədqiqat əsərlərinə, eləcə də xarici ədəbiyyata da münasibət bildirilmişdir.

«XX əsrin əvvələrində erməni-azərbaycan münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri» adlı başlıqda Rusiyada bu dövrdə millətlər arası münasibətlərin inkişafını müəyyən edən şərtlər nəzərdən keçirilir. Müəllif belə nəticəyə gəlir ki, kapitalizmin sürətli inkişafı silklərin sosal strukturunda ciddi dəyişikliyə və ölkədəki etnosların həyatında modernləşməyə səbəb olmuşdur ki, bu da mənəvi dəyişikliklərlə yanaşı, millətlərarası ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarırdı. Təbii ki, «Parçala və hökm et!» siyasətini yürüdən çarlıq Rusiyası bu toqquşmada ən çox maraqlı tərəf kimi çıxış edirdi.

E. Əzizov «1905-1906-cı illərin erməni-azərbaycan münaqişəsi «Difai» partiyasının əsas səbəbi kimi» başlıqlı hissədə yenidən münaqişənin səbəblərini araşdırarkən erməni millətçi «Armenakan», «Qınçaq» və «Daşnaksütyun» partiyaları haqqında geniş məlumat verir. Müəllif doğru olaraq erməni millətçiliyinin güclənməsinin səbəbi kimi Çar hökumətinin assimilyasiya siyasətini göstərmişdir. 1898-ci ildə çarizmin, erməni kilsə-prixod məktəblərini maarif nazirliyinin tabeliyinə verilməsi və 12 iyun 1903-cü il tarixi qanun ilə erməni-qriqoryan kilsəsinin əmlakının müsadirə etməsi erməni millətçiliyinin alovlanması üçün atəş rolunu oynamış oldu. Rus hökuməti dövlət məmurlarına qarşı yönəlmiş erməni terrorunu dinc azərbaycanlı əhaliyə qarşı çevirdi. Nəticədə bütün Qafqazı milli münaqişə alovu bürüdü.

Difai partiyasının yaranmasının səbəblərini əsaslandırarkən müəllif təbii olaraq 1906-cı il fevralın 20-dən martın 6-na qədər canişin qraf İ. İ. Vorontsov-Daşkovun sədrliyi ilə Tiflisdə keçirilmiş erməni-azərbaycanlı sülh danışıqları üzərində dayanır. Həqiqətən də məhz bu məclisdə görkəmli ictimai-siyasi xadim Əhməd bəy Ağaoğlu bildirmişdir ki, bir halda ki, hökumətdən biz azərbaycanlılara yardım yoxdur, erməni «Daşnaksütyün» partiyasının terroru bütün ölkəni bürüyüb. Onda biz də özümüzün müsəlləh partiyasını yaradarıq.

Həmin ilin yayında ermənilər Şuşada növbəti qırğın törətdilər. Xan qızı Xurşud Banu Natəvanın sarayını və məscidini yandırıb yaxdılar. Bu hadisə partiyanın yaradılması ideyasının reallaşmasına səbəb oldu. Müəllifin də istinad etdiyi arxiv sənədlərinə əsasən, Ə. Ağaoğlu Şuşaya gedərək Ə. K. Mehmandarovun evində nüfuzlu adamların yığıncağını keçirir. Məhz həmin yığıncaqda erməni zimvorlarına silahlı xumbalarına (müəllif onu kitabda hampa kimi verir) cavab verə biləcək «Difai» partiyasının yaradılmasına qərar verilir. E. Əzizov partiyanın Bakıda yaradılması fikrində olanlar sırasında S.Y.Süleymanovanın adını çəkir. Halbuki, «Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri) » adlı monoqrafiyada Ə. Ağaoğlunun sədr olduğu Mərkəzi Komitənin Bakıda, «Difai» partiyasının Şuşada yaradıldığı göstərilir. Doğrudur, sonralar partiyanın Qafqazın hər yerində, hətta Cənubi Azərbaycanda özəkləri yaradılmışdır. Lakin nədənsə bu təşkilatlar barədə məlumatlar «Qarabağ Birlik Məclisi» : təşkilati strukturu və proqrammı» başlığı altında verilir. «1906-1908-ci illərdə «Qarabağ Birlik Məclisi»-«Difai»nin fəaliyyəti» adlı başlıq ilə partiyanın strukturu, mübarizə metodları və fəaliyyətinin dayandırılması ilə bağlı faktlar araşdırılır.

Tarix və onun problemləri, №3 2009

Müəllif doğru olaraq aktyor klubunda baş vermiş insidentin Ə. Ağaoğlunun Türkiyə mühacirətinə, nəticədə isə «Difai» partiyasının fəaliyyətinin zəifləməsinə səbəb olduğunu yazır. Lakin, onun 1917-ci ilə qədər fəaliyyətinin davam etdirilməsi haqqında «Açıq söz» qəzetinin 13 oktyabr 1917-ci il sayında gedən məlumatın məhz S. Y. Süleymanovanın kitabından götürülərək Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasına alınması faktı təəssüf ki, diqqət çəkməmişdir..

Ümumi dəyərləndirmə baxımından hələ də aktuallıq kəsb edən erməni-azərbaycan münaqişəsinin tarixinə həsr edilmiş belə bir tarixi sənədli kitabın Azərbaycan türkcəsində və rusca nəşr edilməsi böyük önəm daşımaqdadır. Eldar Əzizovun rəy verilən əsərinin tarixşünaslıqda öz layiqli yerini tutacağına tam əminlik bildiririk.